**Respublika.** - 2024.- 2 noyabr. - № 242. - S. 1,9.

# Ekosid törədən ölkə biomüxtəlifliyi necə qoruya bilər?..

**Röya Rüstəmli**

**Ermənistanın Azərbaycana qarşı təcavüzü yalnız ərazi bütövlüyümüzə deyil, eyni zamanda ətraf mühitə, təbiətə və gələcək nəsillər üçün həyati əhəmiyyət daşıyan ekosistemlərə ağır zərbə vurmuşdur.**

İşğal altındakı torpaqlarımız onilliklər ərzində misli görünməmiş ekoloji fəlakətlər yaşamış, Azərbaycan təbiəti məqsədli şəkildə dağıdılmışdır. Bu ekosid təbii sərvətlərə vurulan ziyanın həm maddi, həm də mənəvi yükünü artırmışdır. Həmin illər ərzində erməni tərəfi bölgədəki sıx meşə örtüklərini vandallıqla məhv etmişdir. Təxminən 260 min hektar meşə sahəsi, yəni Azərbaycanda olan meşələrin 20 faizi bu amansızlıq nəticəsində yoxa çıxmışdır. Bu zərər ölkənin ekoloji balansına, atmosferə buraxılan oksigen miqdarına, karbon emissiyalarının idarə olunmasına ciddi zərbə vurmuşdur.

Ətraf mühitə vurulan başqa bir zərbə çay və çay qollarının çirkləndirilməsi ilə baş vermişdir. Araz, Tərtər və Həkəri kimi Azərbaycanın əsas çayları ağır metallar, kimyəvi tullantılar və digər zəhərli maddələrlə çirkləndirilmişdir. Bu çirkləndirmə həm su ehtiyatlarımızı məhdudlaşdırmış, həm də yerli əhali üçün sağlamlıq risklərini artırmışdır. Su hövzələrinin çirklənməsi nəticəsində həmin ərazilərdə yaşayan insanlar təmiz suya çıxışdan məhrum qalmışdır.

Ermənistanın uzun müddət ətraf mühitin qorunması məsələlərində göstərdiyi məsuliyyətsizlik regionun ekoloji tarazlığını ciddi təhdid altına qoymuşdur. Bununla belə, rəsmi İrəvan bu gün biomüxtəliflik adı altında beynəlxalq tədbirə ev sahibliyi edən ölkə seçilib. Qeyd edək ki, COP17, yəni BMT-nin Bioloji Müxtəliflik Konvensiyası (CDB COP) çərçivəsində keçirilən bu sammitdə dünyanın hər yerindən hökumətlər meşələr, okeanlar və nəsli kəsilməkdə olan heyvan növləri də daxil olmaqla təbiəti necə qorumağı və mühafizə etməyi müzakirə etmək üçün bir araya gəlirlər.

İşin qəribə tərəfi isə odur ki, Ermənistan biomüxtəliflik və ətraf mühitlə bağlı məsələlərdə güclü institusional strukturlara və sabit iqtisadi əsaslara malik deyil. Mövcud qanunvericilikdə biomüxtəlifliyin qorunmasına dair çatışmazlıqlar və icra mexanizmlərinin effektiv olmaması bu ölkənin ekoloji sahədə beynəlxalq konfransların məqsəd və hədəflərinə çatmasına mane olur. Bununla yanaşı, iqtisadi resursların məhdudluğu və ətraf mühit sahəsində idarəetmənin olmaması bu ölkənin biomüxtəlifliyin mühafizəsi üzrə milli və regional səviyyədə öhdəliklərə tam riayət etməsini çətinləşdirir.

Həmçinin ətraf mühit sahəsində zəruri texniki resursların və ixtisaslı kadrların yetərsizliyi ətraf mühitin qorunması məqsədilə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsində ciddi ləngimələrə səbəb olur. Bu vəziyyət yalnız Ermənistanın daxilində deyil, həm də qonşu ölkələrə və ümumilikdə Cənubi Qafqaz regionunun ekoloji tarazlığına təsir edir. Bir sözlə, rəsmi İrəvanın mövcud ekoloji təhdidləri azaltmaq və beynəlxalq tələblərə uyğunlaşmaq üçün uzunmüddətli islahatlara və gücləndirilmiş institusional quruluşlara ehtiyacı var.

Ermənistan kimi iqlim və ekosistemə təhlükə yaradan atom elektrik stansiyası (AES) olan bir ölkədə Biomüxtəliflik üzrə Tərəflər Konfransı - COP17-nin keçirilməsi doğrudan da müəyyən ziddiyyət yaradır. Metsamor AES köhnəlmiş texnologiyası və potensial ekoloji təhlükələri ilə yalnız Ermənistan üçün deyil, həm də regionun ətraf mühit və biomüxtəlifliyi üçün ciddi risk yaradır. Bu şərtlər altında biomüxtəlifliyi qorumaq üçün nəzərdə tutulan qlobal tədbirin həmin ölkədə təşkili ekoloji öhdəliklərin səmimiliyini sual altına qoyur. Belə bir tədbirin burada keçirilməsi, əslində, Ermənistanın AES-lərlə bağlı məsuliyyətini yenidən nəzərdən keçirməsi üçün təzyiq mexanizmi kimi də çıxış edə bilər. Lakin ziddiyyət ondan ibarətdir ki, biomüxtəlifliyi qorumaq mövzusu AES-lərin yaratdığı radiasiya və tullantı riskləri ilə bir araya gəlmir. Bu konfrans iştirakçı ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın AES-lə bağlı mövqeyini təkmilləşdirmək üçün diplomatik təzyiq vasitəsi olaraq da istifadə edilə bilər.

Ermənistanın Biomüxtəliflik üzrə Tərəflər Konfransı kimi beynəlxalq tədbirə ev sahibliyi etməsi ziddiyyətli bir addım olaraq qiymətləndirilə bilər, çünki ölkənin ekoloji məsuliyyətdən yayındığı, AES-lərin yaratdığı təhlükələrə məhəl qoymadığı, təbii sərvətləri məhv etdiyi ortadadır. Bu cür tədbirlər Ermənistanı daha məsuliyyətli ekoloji siyasətə təşviq etməklə yanaşı, ölkəmizin haqlı mövqeyini və ətraf mühitin qorunmasına dair çağırışlarını bir daha qlobal miqyasda diqqətə çatdırmaq üçün əhəmiyyətli bir platforma olmalıdır. Beləliklə, regionda sülh, dayanıqlıq və təbiətin mühafizəsi məqsədilə Ermənistanın ətraf mühitin qorunması və ekoloji təhlükəsizlik üzrə konkret öhdəliklərə əməl etməsi beynəlxalq ictimaiyyət üçün də vacib bir tələb olaraq qalmalıdır.